"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ"
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASI

Poçt indeksi: Az1000, Bakı şəhəri
Z.Əliyeva küçəsi, 18

Tel.: (+994 12) 493 36 44
Elektron poçtu: akademiya@asco.az

"07" 10.2022-ci il                                                    № HƏ 14/02-163

Azərbaycan Milli Elmlər Akademiyasının
prezidenti vəzifəsini icra edən
akademik Arif Həşimova

*Beynəlxalq elmi-texniki konfrans haqqında*

Hörmətli Arif müəllim,

17-18 noyabr 2022-ci il tarixlərində Azərbaycan Dövlət Dəniz Akademiyasında "Şuşa ili"nə həsr olunmuş "Elektroenergetikanın müasir problemləri və inkişaf perspektivləri" mövzusunda online Beynəlxalq elmi-texniki konfrans keçiriləcək.

Rəhbərlik etdiyiniz akademiyanın alimlərini və gənc tədqiqatçılarını bu beynəlxalq konfransa dəvət edirik.

Konfrans aşağıdakı bölmələr üzrə keçiriləcək:

1. Texniki elmlər.
2. Yaşıl enerji texnologiyaları.
3. Fundamental və humanitar elmlər.

Təşkilat komitəsinin qərarı ilə ən yaxşı məruzə materiallarının "Scopus" beynəlxalq elmi bazasında indeksləşməsi nəzərdə tutulur. Təqdim edilən elmi məqalələr konfransın məruzə materialları toplusunda dərc olunacaqdır.

Qoşma: Konfransla bağlı məlumat - 2 vərəq.

Hörmətlə,

Rektor                                                    Heydər Əsədov

ABS
FOUNDED 1862
IAMU
Certified by
Russian Register

"Gəmi elektroavtomatikası" kafedrasının müdiri Elşən Sultanov
Tel.(012) 537 19 83

1205
3
12 10 22

**Azərbaycan Dövlət Dəniz Akademiyası**
**Konfransla bağlı məlumat**

Bildiririk ki, 17-18 noyabr 2022-ci il tarixlərində Azərbaycan Dövlət Dəniz Akademiyasında **"Şuşa ili"**nə həsr olunmuş "**Elektroenergetikanın müasir problemləri və inkişaf perspektivləri**" mövzusunda Beynəlxalq elmi-texniki konfrans keçiriləcək. Böyük məmuniyyətlə Sizi bu konfransa dəvət edirik.

**Konfransın bölmələri:**

1. Texniki elmlər;
2. Yaşıl enerji texnologiyaları;
3. Fundamental və humanitar elmlər.

**Məqalələrin tərtib qaydaları**

1. Əlyazma A4(210x297 mm) formatlı, yuxarı və aşağıdan 25 mm, soldan və sağdan 20 mm boş yer saxlamaqla çap olunur. Əlyazmanın həcmi 4-8 səhifədən çox olmamalıdır.
2. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar göstərilməlidir.
3. Məqalə üç dildə - azərbaycan, rus və ingilis dillərində çap oluna bilər.
4. Məqalədə xülasə 3 dildə və 100-150 söz aralığında verilməlidir. Müxtəlif dillərdə olan xülasələrin mətnləri eyni və məqalənin məzmununa uyğun olmalıdır. Açar sözlər üç dildə - azərbaycan, rus və ingilis dillərində verilməlidir (5 sözdən az olmamaqla).
5. Məqalənin mətni azərbaycan dilində - latın, rus dilində - kiril, ingilis dilində - ingilis əlifbası ilə Times New Roman versiyasında 12 şrift ilə, bir intervalla yığılmalıdır.
6. Tənliklər və düsturlar mətndən bir boş sətirlə ayrılmalıdır.
7. Düsturları, ardıcıl olaraq sətrin sağ tərəfində dairəvi mötərizələrdə yerləşdirilmiş ərəb rəqəmləri ilə nömrələmək lazımdır.
8. Simvolların və ədədi əmsalların izahı bilavasitə düsturun altında, onların düsturda rast gəlindiyi ardıcıllıqla verilməlidir.
9. Məqalənin nəticələrində, elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və alınan əsas nəticələr aydın şəkildə verilməlidir.
10. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla verilməlidir. Onlara istinad [1] və ya [1, s.119] kimi işarə olunmalıdır. Ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.
11. Məqalədə müəllif(lər)in işlədiyi müəssisə və onun ünvanı, müəllifin elektron poçt ünvanı göstərilməlidir.
12. Səhifələr vərəqin sağ tərəfinin aşağı küncündə karandaşla nömrələnməlidir.
13. Əlyazmada aşağıdakı ardıcıllıq gözlənməlidir:
    - UOT indeks (qalın, 11 ölçü, böyük hərflərlə, məqalənin yuxarısında, sol hissədə abzasdan yazılmalı);
    - məqalənin adı (qalın, 12 olçü, böyük hərflərlə yazılmalı, UOT indeksilə məqalənin adı arasında iki interval buraxılmalıdır);
    - müəllif(lər)in soyadı, adı, atasının adı (qalın, 12 olçü, kiçik hərflərlə yazılmalı, məqalənin adı ilə müəllif(lər)in soyadı arasında bir interval buraxmalıdır);

- təşkilatın adı, ünvanı, e-mail (12 olçü, kursiv, kiçik hərflərlə yazılmalı, müəllif(lər)in soyadı ilə təşkilatın adı, ünvanı, e-mail arasında bir interval buraxılmalıdır);
- **Xülasə**
- **Abstract**
- **Аннотация**
- **Açar sözlər**
- **Key words**
- **Ключевые слова**
- **Giriş**
- **Əsas hissə**
- **Nəticə**
- **İstifadə olunmuş ədəbiyyat**

14. Əlyazmalar 2 nüsxədə və elektron variantda təqdim olunur.

## Konfransın qrafiki

Konfransın işi 17-18 noyabr 2022-ci il tarixlərində plenar və bölmə iclaslarında rus və ingilis dillərində onlayn şəkildə aparılacaqdır.

Konfransın keçirildiyi ünvan AZ1000, Bakı şəh. Zərifə Əliyeva küç., 18.

**Əlaqə:**

**E-mail:** adda.conference.2022@gmail.com

**Tel:** (+994 55) 512 25 29, Elsevər Həsənov

AZƏRBAYCAN
MİLLİ ELMLƏR AKADEMİYASININ
VİTSE-PREZİDENTİ

FRTEB – nin
elmi müəssisələ

məlumat üçü

akademik Rasim Əliqu
"14" 10 202

DAXİLOLMA № 01-
" " 20

AZƏRBAYCAN
MİLLİ ELMLƏR AKADEMİYASININ
I VİTSE-PREZİDENTİ

AMEA-nın elmi bölmələrinin rəhbərlərinə

Məlumat üçün.

**akademik Arif Həşimov**
"12" oktyabr 2022-ci il

DAXİLOLMA № 01 - 1205
"12" 10 2022 il